# HEYDƏR ƏLİYEV VƏ KİTABXANA MƏDƏNİYYƏTİ

***Fəranə Fikrət qızı Mikayılova***
*AMEA Lənkəran Regional Elmi Mərkəzin*
*Ümumilli lider Heydər Əliyevin 100 illiyi ad. kitabxana,*
*baş kitabxanaçı*
*faranamikayilova@gmail.com*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, kitab, mütaliə, mədəniyyət*
***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, книга, чтение, культура*
***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, book, reading, culture*

**Xülasə:** Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir" deməsi, özünüdərki müsbət xüsusiyyətlərə görə kitablara borclu olduğunu dönə-dönə vurğulaması, hər insanın formalaşmasında kitabın böyük rol oynadığı faktını dəfələrlə qeyd etməsi bu böyük şəxsiyyətin kitaba verdiyi dəyərin daha bir göstəricisidir.

**Резюме:** Заявление Гейдара Алиева о том, что «Библиотека является священным местом для народа, нации и общества, источником духовности, знаний и интеллекта», его неоднократное подчеркивание положительных качеств самосознания, которыми он был обязан книгам, и неустанное повторение им того факта, что книги играют важную роль в формировании каждого человека, являются дополнительными показателями того значения, которое эта великая личность придавала книгам.

**Summary:** Heydar Aliyev's statement that "The library is a sacred place for the people, the nation, and society, a source of spirituality, knowledge, and intelligence," his repeated emphasis on the positive qualities he owes to books, and his never tire of repeating the fact that books play a major role in the formation of every person, are further indicators of the value this great personality placed on books.

Mütaliə kamilliyə gedən yolun başlanğıcı, mədəniyyətin inkişafı, mənəviyyatın zənginliyidir. Azərbaycan xalqı tarixən kitaba, kitabların qorunub saxlandığı kitabxanaya maraq göstərmiş, onu qoruyub saxlamışdır. Xalqımızın parlaq şəxsiyyəti, Azərbaycanın müstəqilliyinin bərpasının memarı Heydər Əliyevin kitabın, kitabçılığın, mütaliənin təbliğində müstəsna xidmətləri olmuşdur. "Hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir"- deyən Heydər Əliyev kitaba olan sevginin ehtivasıdır.

Məhz 1969-1985-ci illərdə respublikamızda mədəni quruculuq sahəsində həyata keçirilən böyük tədbirlər kitabxana işinin inkişafına da müsbət təsir göstərmiş, əvvəllər ləğv edilmiş kənd kitabxanaları planauyğun qaydada ardıcıl olaraq bərpa olunmuş,  kənd rayonlarının yaşayış məntəqələrində kitabxanalar təşkil edilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxana işinin maliyyələşdirilməsinə diqqət artırılmışdır. [1, səh.7]

Ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında Heydər Əliyevin xidmətləri əvəzedilməzdir. O, respublikada rəhbərliyə gələndən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirmişdir. Müstəqillik illərində Heydər Əliyevin kitabxana işinə diqqət və qayğısının parlaq təzahürünü M.F.Axundov adına Milli Kitabxanaya münasibətində görürük. Kitabxanaları mədəniyyətimizin mühüm tərkib hissəsi, xalqımız üçün müqəddəs bir yer, bilik və zəka mənbəyi kimi qiymətləndirən, təhsil almaqda, elmlərə yiyələnməkdə özünü kitaba borclu hesab edən böyük mütaliəçi və kitab həvəskarı  olan Heydər Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövr-

də, qısa zaman kəsiyində, vaxtının məhdud olduğu bir şəraitdə 1995-1997-ci illərdə dörd dəfə kitabxanaya gəlməsi, onun işi ilə, əməkdaşları ilə tanış olması, kitabxanada keçirilən tədbirlərdə iştirak və çıxış etməsi dediklərimizə parlaq sübutdur.[1.səh,96]

Heydər Əliyev böyük mütaliəçi idi. Həm dünya, həm Azərbaycan ədəbiyyatının mahir oxucusu idi. Məhəmmədhüseyn Şəhiryar, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid ən çox sevdiyi ədəbiyyat nümayəndələri idi. Ən çox sevdiyi şeir Səməd Vurğunun "Azərbaycan" şeiri, ən çox sevdiyi pyes Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi, ən çox sevdiyi jurnal "Molla Nəsrəddin" jurnalı idi.

"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir"-deməsi, özünüdərki müsbət xüsusiyyətlərə görə kitablara borclu olduğunu dönə-dönə vurğulaması, hər insanın formalaşmasında kitabın böyük rol oynadığı faktın təkrar etməkdən usanmaması bu böyük şəxsiyyətin kitaba verdiyi dəyərin daha bir göstəricisidir. [2, səh.30]

Kitabxanalar milli ideologiyanın formalaşması və təbliğində müstəsna rol oynayır. Ulu öndərin kitabxanaya bağışladığı kitablar bu gün Azərbaycan Milli Kitabxanasında ən qiymətli kolleksiya kimi "Nadir kitablar" fondunda mühafizə olunur və unikal nüsxələr kimi Milli Kitabxanaya gələn xarici qonaqlara, oxuculara böyük fərəh hissi ilə təqdim edilir. Milli Kitabxana böyük şəxsiyyət Heydər Əliyevin bu kolleksiyasını kitaba və kitabxanaya verilən böyük dəyərin əyani nümunəsi kimi oxucular, xüsusilə, gənclər, tələbələr və məktəblilər arasında geniş təbliğ edir. [2, səh.61]

İllər keçdikcə böyük mütaliəçi və dahi şəxsiyyət Heydər Əliyevdən kitabla dost olmaq nümunəsini öyrənən gənclər insanın şəxsiyyət kimi formalaşmasında kitabların, mütaliənin böyük rolunu aydın dərk edəcəklər.

**Ədəbiyyat**

1. *Xələfov A*. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı:Azərnəşr, 2006. -312 s.
2. *Tahirov K*. Heydər Əliyev və Milli Kitabxana. – Bakı: “Şərq-Qərb, 2022. - 180 s.